реализации, мер, индикаторов результатов и сроков реализации по конкретным приоритетным направлениям. Интеграция работодателей в систему профессионального образования и обучения определена в качестве одной из пяти стратегических целей Стратегической Дорожной Карты, и это повышает уровень важности той области, но также обуславливает необходимость проведения специальных исследований в области существующее поля.

**COOPERATION WITH EMPLOYERS AS ONE OF THE IMPORTANT DIRECTIONS OF THE “STRATEGIC ROAD MAP ON VOCATIONAL EDUCATION AND TRAINING IN THE REPUBLIC OF AZERBAIJAN"**

***Piriyeva Tarana Zakir***

***Summary***

This article considers the level of importance of cooperation with employers in the field of vocational education as one of the strategic directions of the education system of Azerbaijan, the directions of establishing cooperation with employers at the level of long-term vision and target vision for the period after 2025, analyzes the work carried out in this area, puts forward current proposals of the field in the field of problem solving. The "Strategic Roadmap for Vocational Education and Training in the Republic of Azerbaijan", approved by the Decree of the President of the Republic of Azerbaijan on December 6, 2016, was prepared, indicating the terms and mechanisms of implementation, measures, indicators of results and deadlines for specific priority areas. The integration of employers into the system of vocational education and training is defined as one of the five strategic goals of the Strategic Roadmap, and this increases the level of importance of this area, but also necessitates special research in the field of the existing field.

***Rəyçi:Bakı Slavyan Universitetinin Pedaqogika və psixologoya kafedrasının müdiri, prof. Piralı Əliyev***

***Az.Res. Təhsil İnstitutunun Təhsilin idarə olunması və İqtisadiyyatı şöbəsinin 06 fevral 2023-cü il tarixli iclasın 01 saylı protokolu***

***Daxil olma tarixi 28 fevral 2023-cü il***

**UOT:37.**

# TAPŞIRIQLAR VASİTƏSİLƏ KİÇİKYAŞLILARDA NƏZARƏT VƏ ÖZÜNƏNƏZARƏTİN FORMALAŞDIRILMASI

***Əliyeva Turə Əli qızı***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** *Qazanılmış bacarıq və vərdişlərin təkmilləşdirilməsi şəraitində nəzarətin və özünənəzarətin inkişafına xidmət edən tapşırıqlar xüsusi rol oynayır. Vahid məqsədi olan bu tapşırıqlar məqsədə çatmaq üçün vasitə və formalar üzrə fərqlənirlər. Şübhə yoxdur ki, nəzarət və özünənəzarət bacarıqları zəif inkişaf etmiş şagird, müəllimdən gələn hər hansı bir məlumatı tənqidsiz və yoxlamasız qəbul edir və tapşırıqda olan gizli səhvlərə şübhəsi yaranmır. O, yalnız müəllimin tələblərini nəzərə alır və yerinə yetirir, gizlədilən səhvlərə əhəmiyyət vermir. Nəzarət və özünənəzarətin formalaşdırılması ilə bağlı əvvəllər xüsusi iş aparılmış şagird özünü tamam başqa cür aparır. Belə bir şagird müəllimdən məlumat aldıqdan sonra bütün tapşırıqları dərk etməyə başlayır, yəni onu diqqət obyektinə çevirir, yoxlayır və idarə edir. Belə şagird mətndəki gizli səhvləri asanlıqla aşkar edir və onları düzəldir.*

**Açar sözlər:** nəzarət və özünənəzarət, tədris tapşırıqları, gizli səhvlər, tənqidi təhlil, təlim məsələsi.

**Key words:** control and self-control, learning tasks, hidden mistakes, critical analysis, learning problem

**Ключевые слова:** контроль и самоконтроль, учебные задачи, скрытые ошибки, критический анализ, проблема обучения

Qazanılmış vərdiş və bacarıqların təkmilləşdirilməsi şəraitində nəzarətin və özünə-nəzarətin inkişafına xidmət edən tapşırıqlar arasında üç növ tapşırıq qeyd etmək olar. Vahid məqsədi olan bu tapşırıqlar məqsədə çatmaq üçün vasitə və formalar üzrə fərqlənirlər.

Birinci növ tapşırıqlarda şagirdlərdən mətndə, müəllimin bu barədə heç bir məlumat vermədiyi, gizlədilmiş səhvləri tapmaq tələb olunur. Məşqlərdə diqqət başqa tipli səhvlərə yetirilir, nəticədə şagird gizli səhvləri görməzdən gələ bilər. Bu məşqlər üzərində işləyərkən şagirdlərdə səhvləri axtarmaq üçün əvvəlcədən təlimat verilmir. Onlarda müstəqil şəkildə nəzarət və özünənəzarət bacarığını aktivləşdirməyə kömək edəcəktəlimayarlanmalıdır ki,bu da səhvləri tapmağa yardım etməlidir. Şagirdlərdə bu cür təlimatın yaradılması, nəzarət və özünənəzarət bacarıqlarının aktivləşməsi öz-özünə baş vermir. Bu şagirdlərdə bacarıqların formalaşmasının inkişafına yönəlmiş öncədən xüsusi işin nəticəsidir. Bu iş əsasında yuxarıda qeyd edildiyi kimi, şagirddə təlim tapşırığına tənqidi münasibət formalaşır, o, müəllimin məlumatlarına kor-koranə etibar etmir, yoxlayır və nəzarət edir.

Bu cür tapşırıqlara müəllim əvvəlcədən müxtəlif səhvləri daxil edir və tapşırıqları tədricən çətinləşdirir. Qeyd etdiyimiz tapşırıqlardan bir neçə nümunələr gətirək .

<u>Tapşırıq 1.</u> Lövhədə səhvləri olan mətn yazılır. Səhvlərin bəzilərinin altı cızılır. Şagirdlərdən cümlələri oxumaq və səhvləri düzəltmək tələb olunur. Tapşırığın məqsədi nəzarət və özünənəzarət bacarıqlarını aktivləşdirmək və şagirdləri mətndə altından xətt çəkilməyən gizli səhvləri tapmağa həvəsləndirməkdir. Belə bir mətnin nümunəsini tədqim edək

> Xoruzla pişik dost <u>oldula.</u> Biryerdə  yaşamağa başladılar.Pişik meşəyə getdi xoruz isə evdə<u>q_ ldı.</u> Meşəyə <u>gedə</u> pişik xoruza dedi: “Öydə qal, həyətdə <u>gezmə.</u>Bir dən, tülkü gəlib səni <u>yeyə</u>!

Tapşırıqda 5 səhvin altı çəkilsə də, əslində 8 səhv var.

<u>Tapşırıq 2.</u> Müəllim lövhəyə durğu işarələri olmayan mətn yazır. Müəllim şagirdlərdən cümlələrdə lazımi durğu işarələrini qoymağı xahiş edir, lakin mətndə buraxılmış səhvlər barədə heç nə demir. Durğu işarələri qoyarkən şagirdlər digər səhvləri də görməli və onları düzəltməlidirlər. Belə bir məşq üçün nümunə mətn təqdim edirik.

> Bir kəndli bütün günü evdə deyildi Gecə  öyə gec gəldi Arvadı harda olduğunu soruşdu. Şəhər xəbərlərini dinləirdim ona görə yubandım Hansı xəbərləri arvad soruşdu Kəndli dedi uzaqda dayanmışdım heçnə eşitmədim.

Mətndə iki gizli səhv var: “öyə” və “dinləirdim”.

<u>Tapşırıq 3.</u> Bir naməlumu olan tapşırıqlar lövhəyə yazılır. Bəzi tənliklər səhv tərtib olunub. Şagirdlər tənlikləri həll etməli və boş xanalara lazımi rəqəmləri daxil etməli, eyni zamanda bəzi hallarda tənlik qurmağın mümkün olmadığını görməlidirlər.

Belə bir tənliyin nümunəsi:




Tapşırıq 4. Şagirdlərə deyilir: “ lövhədə verilmiş bərabərliyi bərabər toplananların cəmi kimi təqdim edin. Dairələri bərabər toplananlarla doldurun!




Bu bərabərliklərdən ikisi (üçüncü və beşinci) bərabər toplananın cəmi kimi göstərilə bilməz; bu bərabərliklər yanlışdır. Şagirdlər dairələrə müxtəlif toplananları daxil edərək qeyd etməlidirlər ki, üçüncü və beşinci bərabərliklər səhv tərtib edilmişdir.

Bu tapşırıqlar dərsliklərdəki digər tapşırıqlardan əsasən onunla fərqlənir ki, onların məqsədi proqram materialının tələblərinə uyğun olaraq artıq əldə edilmiş bilik, bacarıqvə vərdişləri möhkəmləndirərək, nəzarət və özünənəzarət bacarıqlarını istifadə və eyni zamanda inkişaf etdirməkdir.

Göstərildiyi kimi, bu cümlələrdə müəllimin diqqət yetirmədiyi və şagirdlərin müstəqil tapmalı olduğu gizli səhvlər var.

Şübhə yoxdur ki, nəzarət və özünənəzarət bacarıqları zəif inkişaf etmiş şagird, müəllimdən gələn hər hansı bir məlumatı tənqidsiz və yoxlamasız qəbul edir və tapşırıqda olan gizli səhvlərə şübhəsi yaranmır.O, yalnız müəllimin tələblərini nəzərə alır və yerinə yetirir, gizlədilən səhvlərə əhəmiyyət vermir. Nəzarət və özünənəzarətin formalaşdırılması ilə bağlı əvvəllər xüsusi iş aparılmış şagird özünü tamam başqa cür aparır. Belə bir şagird müəllimdən məlumat aldıqdan sonra bütün tapşırıqları dərk etməyə başlayır, yəni onu diqqət obyektinə çevirir, yoxlayır və idarə edir. Belə şagird mətndəki gizli səhvləri asanlıqla aşkar edir və onları düzəldir.

Eksperimental siniflərdə müəllimlərin belətapşırıqlardan necə istifadə etdiyinə dair bəzi nümunələr gətirək.

Müəllim yuxarıdakı 2-nci tapşırığı lövhəyə yazır. Tapşırığın məqsədi - şagirdin nəzarət və özünənəzarət bacarıqlarını aktivləşdirmək və onlardan istifadə etməkdir ki, şagird gizli səhvləri aşkar etsin və təlim tapşırığının icrasında qeyri-dəqiqliyə yol verməsin. Burada şagirdlərə lövhədə yazılmış mətnə durğu işarələri qoymaq tapşırığı verilir. Bu zaman mətndəki səhvlər barədə heç nə demirlər. Mətn iki sözdən ibarətdir: “Öyə” və “dinləirdim”, şagirdlər bu sözlərdə daha çox səhvə yol verirlər. Müəllim şagirdlərə müraciət edir: “Diqqətli olun! Bu tapşırığın məqsədi təkcə durğu işarələri haqqında biliklərinizi yoxlamaq deyil. Mənə maraqlıdır ki, nə qədər diqqətlə tapşırığı yerinə yetirəcəksiz”.

Müəllim durğu işarələri qoymaq üçün növbə ilə bir neçə şagirdi lövhəyə çağıra bilər, bu zaman uşaqlara müraciət edir: “Yoxlayın, nəyisə buraxmısınız?”.

Təbii ki, mətndə olan səhvlər müşahidəçi şagirdin gözündən yayınmayacaq və o, müəllimə cavab verəcək ki, “öyə” və “dinləirdim” sözləri səhv yazılıb, “öyə – evə” və “dinləirdim -dinləyirdim” kimi yazılmalıdır. Şagirdlərin bu sözləri səhv hesab etməsinə müəllim “təəccüblənməlidir”: “Bu səhvdir? Başqa kim belə düşünür? Şagirdlər öz fikirlərini bildirirlər. Bəziləri mətndə heç bir səhv olmadığını deyir, bəziləri isə bu sözlərin həqiqətən də səhv yazıldığını iddia edir. Müəllim şagirdlərdən soruşur: “Nəyə görə düşünürsüz ki, bu sözlər səhv yazılıb? Bunun üçün hansı əsaslarınız var?”. Sözlərin səhv yazıldığını qeyd edən şagird izah edir: “Məncə, “öyə” sözü düzgün yazılmayıb, çünki sözün kökü “Ev”dir və ona görə də “Evə” olmalıdır. Müəllim şagirdin cavabını təsdiqləyir: “Düz deyirsən, bu söz səhv yazılıb!”. Sonra müəllim “dinləirdim” sözünün səhv yazılmasının səbəbini izah edən başqa bir şagirdi çağırır. O qeyd edir ki, bu söz “dinləmək” sözündəndir və ona görə də “dinləyirdim” olmalıdır.

Gizli səhvləri olan tapşırıqlar üzərində işləyərkən müəllim digər iş növünü də apara bilər. Məsələn, o, sinfə müraciət edir: “Uşaqlar, mən misalı həll edərkən hansısa səhvə yol verirəm və ona görə də düzgün cavab ala bilmirəm, öz səhvimi isə tapa bilmirəm. Gəlin bu misalı birlikdə həll edək”. Müəllim lövhəyə yazır:

$$\frac{(115x\ 3) - (90:6)}{(84:14) - 1} =$$

Sonra şagirdlərə kitabdakı bu misalın cavabının 66 olduğunu, lakin nədənsə 62 aldığını söyləyir.Müəllim yazı lövhəsində misalı həll etməyə başlayır. O, hesablamadakı hər bir addımı ucadan sözlə ifadə edərək yerinə yetirir və izah edir:

1) 115x3=325
2) 90:6=15
3) 325-15=310
4) 84:14=6
5) 6-1=5
6) 310:5=62

Müəllim deyir: “Görürsüz, cavab səhv alınır! Yəqin ki, misalın özündə səhv var. Necə düşünürsünüz?”.

| | |
|---|---|
| 1) 115x3=345 | 4) 84:14=6 |
| 2) 90:6=15 | 5) 6-1=5 |
| 3) 345-15=330 | 6)330:5=66 |

Bəzi şagirdlər müəllimlə razılaşır və misalın həqiqətən səhv olduğuna inanırlar. Lakin bəzi şagirdlər müəllimi səhvin misalda deyil, onun həllində olduğunu qeyd edirlər. Mübahisə yaranır. Sonra müəllim şagirdlərdən birindən lövhəyə çıxıb misalı həll etməyi xahiş edir. Şagird müəllimin “yol verdiyi” səhvi düzəldir və hərəkətlərini əsaslandıraraq düzgün yerinə yetirir və səsli müzakirə edir:

Şagird “Deməli, cavab 66-dır, bu kitabdakı cavabla eynidir” deyir. Müəllim özünün belə sadə bir misalı həll edə bilmədiyinə “təəccüblənir” və şagirdləri tapşırığı bu cür diqqətlə həll etdiklərinə görə tərifləyir.

Tapşırıqlar üzərində göstərilən iş metodu kifayət qədər səmərə verir. Kollektiv iş, əməkdaşlıq və qarşılıqlı yardım nəticəsində şagirdlərdə müəyyən bir iş haqqında ümumi təsəvvürlər formalaşır, şagirdlərdə düzlük, cəsarət, müstəqillik, öz fikirlərini düzgün ifadə etmək bacarığı formalaşır.

İkinci növ tapşırıqlar "yalançı göstəriş" əsasında qurula bilər. Bu zaman müəllim şagirdləri çaşdırmağa, mətndə buraxdığı səhvlərlə bağlı onlara "yalan göstərişlər" verməyə çalışır.

Bu növ tapşırıqlar zamanı müəllim lövhədə səhv olmayan bir mətn yazır, lakin o, şagirdlərə mətndə səhvlər olduğunu bildirir ki, onları tapıb düzəltməlidirlər. Başqa bir halda, mətndə faktiki olaraq daha az səhv olur, müəllim isə daha çox səhv göstərir və onların düzəldilməsini tələb edir; üçüncü halda, mətndə əhəmiyyətli dərəcədə çox səhv olsa da, müəllim daha az səhvə diqqətini yönəldir.

Yanlış oriyentasiya əldə edərək, şagirdlərdə müvafiq hərəkətləri yerinə yetirməyə göstəriş vermək yaranır, yəni"müəllimin adını çəkdiyi mətndəki səhvlərin sayını tapmaq və düzəlmək". Əslində isə mətn çox az səhvlər ehtiva edir.

Bu növ tapşırıqlar şagirdlərdə müəllimin məlumatlarına tənqidi münasibət formalaşdırır, nəzarət və özünənəzarətin daha da təkmilləşdirilməsinə köməklik edir.

Səhv məlumatlara əsaslanan bəzi tapşırıqları nümunə gətirək.

Tapşırıq 5. Müəllim şagirdlərə müraciət edir: "Mətndə səhvlər var. Onları tapın və vurğulayın.

| |
|---|
| Bir quş var idi. Ağacda boşluq tapır, içinə ot, tük gətirir, özünə yuva düzəldir. Sonra yuvada üç yumurta çıxardır. Üç həftə sonar yumurtadan balaca balalar çıxır. |

Bu göstəriş yalandır, çünki əslində mətndə heç bir səhv yoxdur. Mətndə səhvlər axtarmağa başlayan bəzi şagirdlər düzgün yazılmış sözlərin altını çəkə bilərlər ki, bu da kollektiv baxış zamanı düzəlir və səhvin olmadığı qənaətinə gəlir.

Tapşırıq 6. Şagirdlərə göstəriş verilir: "Mətndə durğu işarələri səhv qoyulub. Onları düzəldin!"

| |
|---|
| Ağcaqanad aslanı döyüşmək üçün çağrdı. Aslan gülmyə başladı. Ağcaqnad qəzəblndi, aslanı burnundan dşlədi. Aslan ağrıdan nərə çəkdi və burnuna şillələr endrməyə başladı. |

Əslində mətndə 6 səhv var. Müəllimin verdiyi yanlış göstəriş çox vaxt şagirdi mətndə olmayan səhvlər axtarmağa vadar edir və o, düzgün yazılmış sözləri yanlışla səhv sala bilər.

Tapşırıq 7. Mətndə 5 səhv var. Şagirdlərə deyirlər: Onları tapın və düzəldin!.

| |
|---|
| Çoldə gozəl bir çiçək boyüyürdü, amma qoxusu yoxidi. Qız gülü qoparıb qızılgullərlə bir vazaya qoydu. Bir müddət sonra o, çicəkdən qızılgül kimi iyi gəldiyini gördü. "İndi başadüşdümki, anam niyə mənə yaxşı uşaqlarla dosd olmağı tövsüyə edir" - dedi qız. |

Əslində mətndə 8 səhv var. Yanlış məlumat nəticəsində bəzi şagirdlər 5 səhv tapıb onları düzəldərək digər səhvləri axtarmırlar. Müəllimin rəhbərliyi altında kollektiv iş uşaqlara qalan düzəldilməmiş səhvləri aşkar etməyə və eyni zamanda başa salır ki, əsas təlimat deyil, əsas onun tənqidi təhlili, tapşırığın tam şəkildə, nəzarətlə yerinə yetirilməsidir.

Səhv təlimatın istifadə olunduğu tapşırıqlar, şagirdin müəllimin göstərişlərinə tənqidi münasibətini inkişaf etdirmək məqsədi daşıyır ki, bu da onun nəzarət və özünənəzarətin aktivləşdirilməsinə kömək edir.

Beləliklə, tədricən bu cür tapşırıqların yerinə yetirilməsi prosesində şagirddə müəllimin məlumatlarına tənqidi münasibət formalaşır. Şagirddə tədricən müəllimin də səhv edə biləcəyi fikir formalaşır. O, düşünür ki, müəllimin məlumatlarına kor-koranə etibar etmək olmaz. Müəllimin məlumatlarına və ümumiyyətlə, təlim məsələsinə belə münasibətin formalaşması şagirdi müəllimin və digər xarici təsirlərdən azad edir və onu müstəqil düşünməyə, müstəqil fəaliyyətə alışdırır.

Gizli səhvlər və yalan məlumatlar əsasında qurulan belətapşırıqlara əlavə olaraq, "*təxribatçı tapşırıqlar*" adlandırdığımız daha bir üçüncü növtapşırıqları təqdim etdik. Bu tapşırıqların mətnləri elə tərtib olunur ki, şagirdi təkcə yalan məlumatla deyil, həm də müxtəlif işarələr - xanalar, dairələr, tirelər vasitəsilə çaşdırsın. Şagirdi çaşdıran bu şərti əlamətlər eyni zamanda ona tapşırığın səhvə yol verə biləcəyi bu və ya digər hissəsini obyektivləşdirməyə kömək edir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqramı (kurikulumu) / – Bakı: – 2013, http://www.kurikulum.az
2. Иванова В.С. Развитие навыков самоконтроля у учащихся начальной школы.–М.: Педагогика, 2014.- 147с.
3. Мальцева К.П. Самоконтроль в учебной работе младших школьников. – В сб.: Вопросы психологии учебной деятельности младших школьников. – М.: Изд-во АОР, 2012, с. 41-56.


## ФОРМИРОВАНИЕ КОНТРОЛЯ И САМОКОНТРОЛЯ У МАЛОЛЕТНИХ ЧЕРЕЗ ЗАДАНИЯ

*Алиева Тура Али кызы*


**Резюме**

Особую роль в совершенствовании приобретенных навыков и привычек играют задания, служащие развитию контроля и самоконтроля. Эти задачи, имеющие единую цель, различаются средствами и формами достижения цели. Несомненно, что учащийся со слабо развитыми навыками контроля и самоконтроля воспринимает любую информацию от преподавателя без критично и проверки, не подозревая о скрытых ошибках в задании. Он только учитывает и выполняет требования учителя, не обращает внимания на скрытые ошибки. Совсем иначе ведет себя ученик, с которым предварительно проведена специальная работа по формированию контроля и самоконтроля. Получив информацию от учителя, такой ученик начинает понимать все задания, то есть превращает их в объект внимания, проверяет и контролирует. Такой ученик легко обнаруживает скрытые ошибки в тексте и исправляет их.


## FORMATION OF CONTROL AND SELF-CONTROL IN YOUNGER THROUGH TASKS

*Aliyeva Tura Ali*


**Summary**

A special role in improving acquired skills and habits is played by tasks that serve to develop control and self-control. These tasks, which have a common goal, differ in the means and forms of achieving the goal. Of course, a student with poorly developed control and self-control skills perceives any information from the teacher without criticism and verification, unaware of hidden errors in the assignment. He only takes into account and fulfills the requirements of the teacher, not paying attention to hidden errors. A student with whom special work on the formation of control and self-control was previously carried out behaves

quite differently. Such a student, having received information from the teacher, begins to understand all the tasks, that is, turns them into an object of attention, checks and controls them. This student easily detects hidden errors in the text and corrects them.

***Rəyçi: prof. Ş.T.Tağıyev***
***Ümumi pedaqogika kafedrasının 15 fevral 2023-cü il tarixli iclasın 09 saylı protokolu***
***Daxil olduğu tarix 17 fevral 2023-cü il***

**UOT (UDK) 3.37**

# MÜASİR TƏHSİLDƏ PEDAQOJİ DİAQNOSTİKANIN MAHİYYƏTİ, MƏQSƏDLƏRİ VƏ İSTİQAMƏTLƏRİ

***dosent Bayramova Ziyafət Vilayət qızı, Salahova Kamilə Zakir qızı***
***Gəncə Dövlət Universiteti***
***ziyafet@bk.ru,***
*kamile.salahova.82@inbox.ru*

**Xülasə:** *Müasir şəraitdə pedaqoji diaqnostika müəllimin peşə fəaliyyətinin ayrılmaz tərkib hissəsidir. Pedaqoji diaqnostikanın məktəblərdə təhsil prosesinin qurulmasında, təlim-tərbiyə işinin təkmilləşdirilməsində mahiyyəti, məzmunu, metodlar məcmusu, prosesin bəzi xüsusiyyətləri və şərtləri nəzərə alınmaqla bütövlükdə iş prosesinin istiqamətləri müəyyənləşir.*

*Pedaqoji diaqnostikanın nəzəri baxımdan inkişafı, təkmilləşdirilməsi peşə təhsil sistemində tədqiqi vacib məsələlərdən olmaqla böyük aktuallıq kəsb etməkdədir. Pedaqoji diaqnostikanın tətbiqi müasir məktəbdə şagirdlərin və pedaqoji kadrların keyfiyyət göstəricilərinə verilən tələblər qarşıya çıxan praktik və elmi - pedaqoji vəzifələrin dövrün tələbinə uyğun konkretləşdirilməsinə imkan yaradır.*

**Açar sözlər:** pedaqoji diaqnostika, məzmun, mahiyyət, təhsilin keyfiyyəti, keyfiyyət göstəriciləri

**Ключевые слова:** педагогическая диагностика, содержание, сущность, качество образования, качественные показатели.

**Key words:** pedagogical diagnostics, content, essence, the quality of education, quality indicators.

Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir. Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir [1].

Hazırda pedaqoji diaqnostika müəllimin peşə fəaliyyətinin tərkib hissəsi kimi qəbul edilir. Onun mahiyyətinin, məzmununun, metodlarının, xüsusiyyətlərinin və şərtlərinin müasir təhsil prosesinə təsiri məktəblərdə təlim-tərbiyə işinin təkmilləşdirilməsinin və iş prosesinin qurulmasının ən mühüm istiqamətlərini müəyyənləşdirir.

Müasir mərhələdə alimlər və praktik müəllimlər pedaqoji diaqnostikaya təlim və tərbiyə prosesinin optimallaşmasını təmin edən amil kimi yanaşırlar. Pedaqoji diaqnostika təhsil subyektlərinin inkişafının, təhsilinin və tərbiyəsinin, o cümlədən mənəvi tərbiyəlilik səviyyəsinin müəyyənləşdirilməsi mexanizmidir [2].